

# Bazar Baltayev

***1951-ci ildəQaşqadərya vilayətinin Şəhrisəbz rayonunda anadan olub. Səmərqənd Pedaqoji Universitetinin özbək dili və ədəbiyyatı fakültəsini bitirib. Uzun illər təhsil sahəsində, eləcə də bir sıra təşkilatlarda rəhbər vəzifələrdə çalışıb.***
***Onun "Deyilməmiş nəğmələr", "Payızda büyümüş çiçəklər", "Toyanə", "Atam duyan fəxr", "Məktəbadlıq bəylər", "Gəncliyə qayıdış" kitabları çap olunub.***

## Ağ gecə

Gecə. Beyaz gecə. Yox, gecə deyil,
Südə ilə yuyulan sanki ay üzü.
Pıçıldab oxuyur məğrurcəsinə,
Ağaclar düzülmüş əsgərlər kimi.

Yumşaq bir mahnıtək axacaq axşam,
Gecə dalğasında sallanır ay da.
Bu dalğaya bənzəb beşik sallanır,
Beşikdə uzanıb yatardı dünya.

## Şeytanlar

Şeytanın mələyi bəzi insanlar,
Bilmirdim, gəlirlər nə zaman, hardan.
Bir yol tapıb əlbət özünü oyar,
Sadəcə sən ona bir nəzər salsan.

Narahat olmadan baxır gözünə,
Ya əlhazar, heç də utanmıyorlar.
Ayaq-əlin bağlab, suya atsanmı,
Daşqında da sərbəst üzəcək onlar.

## Hikmət

Gələcək bu gündən daha da parlaq,
Uşaqlar hədəfi ilə yaşadım.
Atasız, anasız oldum bıçarə,
Və nəhayət qocalmağa başladım.

Peyğəmbər yaşdan da keçmişəm axı,
Ay Yəsəvi baba, söylən, nə edim?
Dünya qayğıları yalayır, udur,
Qəbri göstərin, harda qazayım?

## Tənha

Qəribə gün gördü bu tənha adam,
Bir yoldaş soruşdu böyük Allahdan.
Harda o həmrahi, harda o dostu,
Suali cəvabsız qalacaq hələ.

Yalnızlıq qürbəti qalib gəldimi,
Fəryadlari çatdi o asimana.
Yalnızlıq olsa da Allahın haqqı,
Onun hüzuruna getdi o tənha.

## Rahatlıq

Evinə qayıtdı bəxtəvər oğlan,
Qucağında tutub bir yığın kitab.
Bu əhvali görən məst ata daha,
Qışqırdı, bağırdı oğluna o vaxt:

"Kitab daşıyırsan bu evə, axmaq,
Bu şeydən nə zaman qarın doyacaq.
Pulun varsa axı, ət alsan məğər,
Yemək yeyirdilər bacıların, ah..."

## Məğlub

Həyatımda çox döyüşlər keçirdim,
Qələbə dadını görmədim mən heç.
Nə olardu sönük, səssiz, səmərsiz,
Səhnəni tərk etsəm olmadan çox gec.

Döyüşlərdən daha bezmişəm axı,
Bir bax qırx ildir ki, qamçıq yeyirəm.
Mən rinqdən kənarda, rəqiblərim də,
Kaş ki, sakit, sakın olsa deyirəm.

Tərcümə etdi: Rəhmət Babacan